# MEHDİ HÜSEYNİN "NİZAMİ" DRAMINDA TARİXİLİYİN BƏDİİ ƏKSİ

Günel ŞIXALİYEVA*

**Xülasə:** Nasir, dramaturq, tənqidçi Mehdi Hüseyn (1909-1965) yaradıcılığında həm müasir, həm də tarixi mövzulara yer ayırmışdır. Ədibin tarixi mövzuda yazdığı dramları "Şeyx Şamil" (1941), "Nizami" (1942), "Cavanşir" (1957) əsərləridir. Ədiblər tarixi hadisələrə, şəxsiyyətlərin həyat, fəaliyyət və dövrlərini qələmə almaqla müasir dövrləri üçün aktual olan problemləri göstərir və bu tarixi hadisələrdən nəticə çıxarmağı tövsiyyə edirlər. M. Hüseyn də "Nizami" dramının mərkəzində Azərbaycan fikir tarixində əsas yeri tutan, mütəfəkkir-şair Nizmi Gəncəvi şəxsiyyətini canlandırmışdır. Bu əsərdə ədib şairin dövrü və həyat və fəaliyyətindən bəhs etməklə müasir dövrün hadisələrinə münasibət bildirmişdir. Müəllif əsərdə əsas problem kimi hər bir dövrdə aktual olan vətənpərvərlik və məhəbbət motivini qoymuşdur. Dramda tarixilik və müasirlik qarşılıqlı şəkildə əks olunmuşdur.
***Açar Sözlər:*** *Mehdi Hüseyn, Nizami Gəncəvi, Tarix, Dram, Xalq*

**Artistic Reflection of Historicity in Mehdi Huseyn's Play "Nizami"**

**Abstract:** Writer, playwright, critic Mehdi Huseyn (1909-1965) devoted space to both modern and historical topics in his work. The historical plays written by writer are "Sheikh Shamil" (1941), "Nizami" (1942), "Javanshir" (1957). Writing the lives, activities and times of those historical figures, writers show the problems that are relevant for modern times and recommend drawing conclusions from these historical events. M. Huseyn also revived the personality of the thinker-poet Nizmi Ganjavi, who occupies a central place in the history of Azerbaijani thought, in the center of the drama "Nizami". In this work, the literary poet expressed his attitude to the events of the modern period by talking about his life and activities. The author put the motif of patriotism and love, which is relevant in every era, as the main problem in the work. History and modernity are mutually reflected in the drama.
***Keywords:*** *Mehdi Huseyn, Nizmi Ganjavi, History, Play, Nation*

## Giriş

Azərbaycan ədəbiyyatında nasir, dramaturq, tənqidçi kimi tanınan Mehdi Hüseyn (1909-1965) həm müasir, həm də tarixi mövzuda əsərlər yazmışdır. Müəllif tarixi mövzuda qələmə aldığı dramları "Şeyx Şamil"( 1941), "Nizami" (1942), "Cavanşir" (1957) əsərləridir. M.Hüseynin tarixi şəxsiyyətlərin həyat, fəaliyyət və dövrünə həsr etdiyi əsərlərindən biri "Nizami" dramıdır.

1941-ci ildə mütəfəkkir-şair Nizami Gəncəvinin keçiriləcək yubileyinə hazırlıq geniş bir şəkil almış, ədiblər Nizami Gəncəvinin əsərlərini ana dilinə tərcümə etməklə bərabər, "Xəmsə" mövzusunda bədii əsərlər də yazmışdılar.

Abdulla Şaiqin "Nüşabə" və "Fitnə" pyesləri şairin əsərləri əsasında yazılmışdır. Nizami Gəncəvinin yubileyinə hazırhq dövründə Səməd Vurğun ədibin "Leyli və Məcnun" poemasını tərcümə etməklə yanaşı, "Xosrov və Şirin" poeması əsasmda "Fərhad və Şirin" dramını yazmış, Məmməd Səid Ordubadi isə Nizami Gəncəvi şəxsiyyətinə və dövrünə həsr etdiyi "Qılınc və qələm" əsərini qələmə almışdır.

Mehdi Hüseyn də Nizami Gəncəvi yubileyinə hazırlıq dövründə görkəmli şair Nizami Gəncəvinin həyat və fəaliyyətinə, dövrünə həsr etdiyi "Nizami" tarixi dramını yazmışdır.

Ümumiyyətlə, tanmmış şəxsiyyətlərə həsr olunmuş əsərlər yazmaq çətindir, Nizami Gəncəvi haqqında yazmaq isə xüsusi məsuliyyət, böyük istedad tələb edirdi. Tənqidçi-alim Məmməd Arifin qeyd etdiyi kimi, "Nizami öz qüdrətli və dahiyanə əsərləri, geniş və zəngin surətlər sərgisi, dərin fəlsəfı-əxlaqi fıkirləri, misilsiz şeiriyyəti ilə oxucuların təsəvvüründə elə mücəssəm bir varlıq kimi yüksəlir ki, o, təsəvürün fövqünə qalxmaq və oxucunun bədii tələblərini təmin etmək xüsusi istedad istəyir" (Məmməd, 1968: 369).

Mehdi Hüseyn də "Nizami" dramını yazarkən şairin həyat və yaradıcıhğını dərindən öyrənməklə bərabər, onun yaşadığı tarixi dövrün mühüm siyasi-ictimai hadisələrini öyrənməklə, şair haqqmda aydın və geniş məlumat almışdır.

* Filologiya Üzrə Fəlsəfə Doktoru, Bakı Avrasiya Universiteti, shixaliyevagunel84@mail.ru, ORCID: 0000-0001-6494-5423.
DOI :10.30546/100981.2024.0178

Müəllifin 1947-ci ildə Nizami Gəncəvi yaradıcılığma həsr etdiyi “Səadət və məhəbbət müğənnisi” adlı məqaləsindən məlum olur ki, müəllif Nizami Gəncəvi yaradıcılığmı dərindən öyrənmişdir: “Onun bədii lövhələrdə ifadə olunmuş ən böyük həqiqətlərdən biri budur ki, Nizami yaşadığı feodal-patriarxal cəmiyyətdəki insanlar xoşbəxt deyil... Nizami ömrü boyu xoşbəxt bir cəmiyyət quruluşu arzulamışdır.

Onun əsrlərə nüfuz etməyi bacaran nəzərləri daima irəliyə, daima gələcəyə zillənmişdir. Bu səbəbə görədir ki, onun bəzi əsərlərində ümidsizlik və kədər nidaları heç də böyük şairin bədbinliyinə dəlalət etmir...” (Hüseyn, 2005: 290).

**1. “Nizami” Dramında Tarixilik və Bədiilik**

“Nizami” pyesinin aparıcı ideyası vətənpərvərlik və məhəbbət motivləridir. Daha dəqiq qeyd etsək, dramda vətən, xalq məhəbbəti ilə şəxsi məhəbbət birləşərək biri digərini tamamlayır.

Nizami obrazı vətəninə, onun təbiətinə vurğun, vətəninin hər qarışmı sevən vətənpərvər şairdir: “Bərdəni seyr edən insanın gözləri heç bir zaman həyatdan doymayacaqdır. Ana yurdun bu qərib, bu ucsuz-bucaqsız laləzarını tərif etmək bilirsinizmi şair üçün nə böyük səadətdir” (Hüseyn, 2005: 89) deyən şair doğma yurdunun gözəlliklərinə məftun olan bir şəxsiyyətdir.

Əkbər Ağayev “Nizami” pyesinin ideyası haqqında yazmışdır: “H. Mehdi hələ “Nizami” əsərində böyük Azərbaycan şairi Nizaminin dövrünü və həyatını göstərərkən Azərbaycan xalqınm tarixi keçmişindəki qəhrəmanlığı əsas götürmüş və vətənpərvərlik hissini həlledici motiv kimi vermişdir. Əsərdə Bərdə şəhəri bütün Azərbaycanm rəmzi kimi götürülmüş və Azərbaycan oğullarının bu şəhəri qorumaq uğrundakı fədakar mübarizəsi tərənnüm edilmişdir” (Ağayev, 1957: 3).

Şair üçün məhəbbət ən yüksək və ali duyğulardandır. Mehdi Hüseynin “Səadət və məhəbbət müğənnisi” məqaləsində yazmışdır: “... Onun nəzərincə, məhəbbət olmayan yerdə səadət də yoxdur. O, iddia edir ki, “eşq olmasaydı, yer üzü də abad ola bilməzdi”... O, məhəbbəti dərin ictimai bir amil kimi təsvir edir" (Hüseyn, 2005: 292).

Pyesdə şair məhəbbətsiz insanı ölü cana bənzədir:

“Sevgidən məhrum olan insanm yüz canı da olsa, yenə ölüdür!
Məhəbbətdən bağlamışam, dastanımı kəmərini,
Məhəbbətin gözü ölçər hər bir sənət əsərini.
İnsan oğlu bu dünyada öz eşqilə güləcəkdir,
Məhəbbətlə öpəcəkdir gələcəyin səhərini” (Hüseyn, 2005: 119).

Şairin doğma yurduna, vətəninə, xalqına məhəbbəti əsərdə başlıca yer tutur. Bərdənin xəzərlər tərəfindən işğal ediləcəyini eşidəndə Nizami kədərlənir, əsl vətəndaş, müdrik bir şəxs kimi mübarizə meydanma atılır. Onun hər sözü vətəninin igid oğullarının inamını, gücünü artırır, xalqnı ayağa qaldırır. “Əlini qılınc, sinəsini qalxan edənlər... Qorxmayın, buraya ölüm gətirənlərin son yeri qəbristandır. Bu torpağın oğulları hər şeydən yoxsul olsalar da, namusdan deyildir” (Hüseyn, 2005: 91).

Şair vətəni müdafiəyə qalxmış igidləri düşmənə qarşı mübarizəyə, döyüşə ruhlandıraraq deyir: “... “Ölərik, amma basılmarıq!” Siz də eşidin, igid dostlarım. Nizami yalnız Azərbaycan igidlərinin eşqilə yaşayır” (Hüseyn, 2005: 91).

Hətta Nizami şahla qarşılaşanda şah onu saraya dəvət edərək “Şair, arzum budur: bütün dərdini unut, sarayıma gəl!..” (Hüseyn, 2005: 92) deyərkən şair bu məqamda da, öz şöhrətini, şəxsi mənafeyini deyil, vətəninin, xalqının taleyini düşünür, vətəninin bu dar günlərində şahdan kömək istəyir:

“-Əfv edərsiniz, ey şah, Bərdəyə hazırlanan hücumdan xəbərdarsmızmı?” (Hüseyn, 2005: 92).

Pyesdə şahla Nizami qarşılaşdırılarkən şair vətənin azadlığmı düşünür “Bahar fəslində şaxta vurmuş, bir bağçamn bülbülü nəğmə oxuya bilərmi” (Hüseyn, 2005: 93) sözlərini düşənərək vətəninin bu hala düşməsində şahı günahlandırır:

“Nizami: ... Odlar yurdu on yerə parçalanmışdır. Hər dərənin bir hökmdarı var! Nə üçün, ey şah? Məgər bir insanın qəlbi belə xırda hissələrə bölünərkən, yaşaya bilərmi?

Şah: Əvvəldən belə olmuşdur, şair... Bunun günahı məndə deyil, tarixdədir.

Nizami: Əsl qüvvət də, tarixin səhvini düzəldən hökmdardadır. Azərbaycanın belə bir hökmdara ehtiyacı vardır...” (Hüseyn, 2005: 93).

Tarixdən də məlumdur ki, Nizami bütün ömrü boyu saraylardan, şahlarm himayəsindən kənar yaşamışdır. Şair həmişə yoxsul komasmı dəbdəbəli saraylardan üstün tutmuşdur.

M. Hüseyn bu tarixi həqiqətə əsaslanmış məhz buna görə də Nizami heç bir şahın dəvətini qəbul etmir, şahlardan, hökmdarlardan çəkinməyərək cəmiyyətdə gördüyü nöqsanları şahların özlərinə deyir: “Ey hökmdar, mən sənin zülmündən şikayət edən məzlumlarm ahnaləsiyəm! Mən parçalanmış bir ölkənin şikəst ürəyindən qopub gələn bir fəryadam! Mən “Sirlər xəzinəsi”ndə olanlarm yüzdə birini demişəm. Mən bir güzgüyəm ki, sənin həqiqi simanı göstərmişəm. Əgər sifətin eybəcərdirsə, onun ləkəsini təmizlə! Bəs nə üçün güzgünü sındırırsan?” (Hüseyn, 2005: l06).

Mirzə İbrahimovun ““Nizami” dramı və tarixi dram məsələsi” məqaləsində doğru olaraq bildirmişdir ki, “Nizamini də şah ona görə qovur ki, o şairdəki vətənpərvərlik hisslərini duymur, bu hisslər ona nəyinki yabancı gəlir, hətta onu qorxuya salır. O, vətənini və xalqını sevən acı həqiqətləri deməkdən qorxmayan hər kəsə təhlükəli bir üsyankar kimi baxır” (İbrahimov, 1947: 195). Əsərdə təsvir olunduğu kimi şah ancaq yalançıları, məddahları yalanlarıdan zövq alır, həqiqəti deyib onun gözünü açmaq istəyənləri isə zindanlara saldırırdı. Bu da təbii idi, çünkü onun ətrafını məddahlar tutmuş, şah başı eyş-işrətə qarışmışdır, hətta Bərdənin işğal olunmağını eşidəndə vətəninin bir hissəsinin deyil, sanki əyləndiyi ov yerinin tutulmasına təəssüflənir: “O yerlərə ova çıxarkən, insan dünyanın hər bir dərdini unudurdu. Təəssüf, çox təəssüf!” (Hüseyn, 2005: 101).

Nizami isə şahdan fərqli olaraq “Hanı elə bir hökmdar ki, bu xarabaları görərkən ürəyindən qopan ah səsi bütün dünyanı titrətsin?!” (Hüseyn, 2005: 105) deyərək vətəninin dərdinin yalnız bir qrup şəxsin deyil, ümumilli dərd olmasmı istəyir.

Ədib Nizamini dövrünün Məhsəti, Qivami, Munis kimi tanınmış şairlərinin əhatəsində və onlarla müqayisədə təsvir edir. Bu şairlərlə müqayisədə Nizami məğrur, dünyaya baxışında nikbin, humanist, dağlar qədər əzəmətli, vətənpərvər bir şair kimi təsvir olunmuşdur. Onun ətrafmdakı şəxslər də şairin istedadını yüksək qiymətləndirirlər: “Məhsəti: Mənim nəzərimdə Nizamini dağlar qədər əzəmətli göstərən də onun zəkasıdır. Onun gözlərinə baxdıqca ürəyim bu geniş kainata belə sığmayır” (Hüseyn, 2005: 83).

Müəllif Nizaminin dünyagörüşünü, həyata baxışmı, həyat fəlsəfəsini saray şairi, məddah öz mənafeyini, şöhrətini, güdən, “mən həqiqət aşiqiyəm, mənim vicdanım ləkə götürməz” deyən Munislə şeirləşərkən aydın şəkildə əks etdirə bilmişdir. “Munis deyir:

Küdurət insana yardır əzəldən,
O, kinlə gələrək böyük varlığa.
Sirdaş kəsilmişdir hiyləkarlığa,
İnsanm varlığı kindir, hiylədir.
Nizami deyir:
Yox, səhv edirsiniz böyükdür ürək,
Bəzi sinələrə bir yükdür ürək.
Müqəddəs yaranmış dünyada insan,
Hər zaman insanla fəxr etmiş cahan.
Məndə hiss-hörmət vardır insana;

Əvvəldən məhəbbət yardır insana.
Sevgi bu dünyada ilk xilqət olmuş,
İnsanın ilk sözü məhəbbət olmuş!” (Hüseyn, 2005: 86).

Munis əgər insan qəlbində yalnız kin və fitnə axtarırsa, Nizami isə insan həyatında məhəbbətin, sevginin mühüm rolu olduğunu göstərir.

Nizami dünya hadisələrinə münasibətdə ictimai fıkirlərində nikbindir və gələcəyə böyük ümid bəsləyir: “Ümidsiz olmaq acizlikdəndir insan yer üzünə səadət üçün gəlir... Biz bu kədərin önündə dağ kimi durub, sözdən insanlar üçün səadət sarayı yaradacağıq... Hər qaranlıq gecənin günəşli bir gündüzü də var!..” (Hüseyn, 2005: 112-113).

Nizami sənətinin qüdrəti saraylarda da əks səda yaratrmşdır. Əsərdə təsvir olunan Şirvan hökmdarı dövlət işini anlamayan, bu işlərə qarşı laqeyd olan, gününü əyləncədə keçirən biri olsa da, lakin poeziyanı duyur, Nizami şəxsiyyətinin böyüklüyünü dərk edir: “Mən onu əsərlərindən tanımışam. Nizami Qaf dağı kimi məğrur və əyilməzdir” (Hüseyn, 2005: 101).

Vali Nizami haqqmda "Özü də xırda qoşmalardan başqa heç nə yaza bilmir... Onun adı var, özü yoxdur. O başqalarmm tərifı ilə yaşayır" (Hüseyn, 2005: 102) deyəndə şah ona etiraz edir və ona inanmayaraq deyir: “- Nizaminin hər bir misrası almaz kimi itidir. Ürəklər daşdan da olsa, onlan kəsib özünə yol açacaqdır... Bu qəzəllər qoşma deyildir, gövhərdir...” (Hüseyn, 2005: 102).

Əsərdə Nizami Gəncəvi şəxsiyyətinin humanizminin də şahidi oluruq. Nizami dövründə ənənə halını almış insanlanı saraylara qul, kəniz kimi aparılmasına qarşı idi. Bu səbəbdən də ona Dərbənd hökmdar tərəfindən göndərilən kənizi qəbul etmir: “Yox, yox. Mən özüm heç kimə qul olmaq istəmədiyim kimi, başqasını da özümə qul etmirəm” (Hüseyn, 2005: l15).

Əsərdə şairin tarixdə olduğu kimi, ailə səadəti anlayışına necə yüksək dəyər verdiyi də təsvir edilmişdir. Bunu biz Afaq həyatının son anlarını yaşayarkən şairin Afaqın sevgisini sonsuza qədər itirəcəyini duyaraq onun başı üstə fəryad dolu monoloqundan müşahidə edə bilərik: “Ey böyük Tanrı, biz öz məhəbbətimizlə insanları əsrin çamurluğundan nəhayətsiz göylərə, dibsiz fəzalara qədər yüksəltmək istərkən, sən öz fitnənlə nə üçün bizim səadət sarayımızı uçurursan? Ey fələk, sənin gərdişin nə üçün rəqqasələr kimidir? Bu mənim Afaqımdı. Gözlərim önündə böyük üfuqlər açan ilahi bir məhəbbətin canlı heykəlidir. Afaq, mənim qaranlıq daxmamı, soyuq evimi öz nəfəsilə isidən bir ocaqdır ki, indi sən onu söndürmək istəyirsən” (Hüseyn, 2005: l25-126).

## 2. Tənqidçilərin “Nizami” Dram Haqqında Fikirləri

M.Hüseynin müasir dövrümüz üçün də səciyyəvi ideyalar təbliğ edən “Nizami” dramı tənqidçilərimiz tərəfindən birmənalı qarşılanmamışdır. Bəzi tənqidçilərimizin fikrincə Nizami Gəncəvi şəxsiyyəti əsərdə hərtərəfli əks olunmamışdır.

Yazıçı və tənqidçi Mirzə İbrahimov “Nizami dramı və tarixi dram məsələsi” adh məqaləsində bu barədə yazrmşdrr: “Nizamidə əhəmiyyətli nöqsanlar yox deyildir. Biz Mehdi Hüseyn yoldaşm yazdığı və Əfqan yoldaşın ifa etdiyi Nizamiyə baxdıqda düşünürük: görəsən bu Nizami, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə” və s. ölməz əsərləri yaradacaq bir dühaya malikdirmi? Deyə bilərik ki, Mehdi yoldaş Nizami səciyyəsinin ancaq bir cəhətini, onun ən lirik cəhətini götürmüşdür. Bu doğurdan da belədir. Nizami ruhi şadlığın yüksək zirvəsini yaşadığı zaman belə ney kimi nalə edir” (İbrahimov, 1947: 201).

Qeyd edək ki, Mehdi Hüseyn pyesdə Nizaminin gənclik dövrünü həyat və fəaliyyətini canlandırmışdır. Mirzə İbrahimovun “Nizami, ruhu şadlığın yüksək zirvəsini yaşadığı zaman belə ney kimi nalə edir” deməyi bir qədər düzgün deyil. Çünki Mehdi Hüseyn Nizami Gəncəvinin yaşadığı dövrünün elə bir vaxtını təsvir etmişdir ki, bu dövrdə şairin vətəni

yağıların hücumuna məruz qalmışdır. Şahlar, hökmdarlar vətənin bu halınaa laqeyd qalırdılar ki, belə bir vəziyyətdə isə şair necə ney kimi nalə etməyəydi.

Yəhya Seyidov isə “Mehdi Hüseyn” monoqrafiyasında Nizami obrazı haqqında yazlmışdır: “Mehdi Hüseynin yaratdığı Nizami, xəbərdar oxucunun təsəvvüründə yaşayan dahi şairin zəngin surəti ilə müqayisədə uduzur. Lakin oxucunun qənaəti, sənətkarın əsərləri və şəxsiyyəti, başqa sözlə bütün həyatı haqqında bildiklərindən doğursa, dramdakı Nizami gəncdir, özünün ilk addımlarını atır. Bu nöqteyi nəzərdən real və inandırıcıdır” (Seyidov, 1979: 119).

Məmməd Arif isə “Vaqif dramaturgiyası” əsərində Nizami obrazı barəsində “Nizami surətinin canlı yaradılması üçün müəllif dramaturgiyamızm müsbət təcrübələrindən müvəffəqiyyətlə istifadə etmişdir. Buna baxmayaraq, Nizami surəti Vaqif səviyyəsinə qalxa bilməmişdir”, (Məmməd, 1968: 368) - deyə yazırdı.

M.Hüseyn “Vaqif” və “Nizami” dramları arasında güclü bənzəyiş görüb, onu adi təqlidçi kimi qələmə verənlərə “Böyük sənət uğrunda” (1947) məqaləsində qəti cavab vermişdir: “Buradan da bəziləri nəticə çıxarıb “Vaqif” olan yerdə “Nizamiyə ehtiyac yoxdur” - deyilərsə, mən o vaxt müdafiədən hücuma keçirəm və iddia edirəm ki, sizin bədii üslub haqqında görüşləriniz bədii həqiqəti təşrihə kömək etmir, əksinə bu həqiqətin üstünə toz-torpaq atır. Ümumiyyətlə, mən həmişə bu fıkirdə olmuşam ki, hadisələrə eyni gözlə baxan iki sənətkar yoxdur, ola da bilməz, necə ki, dünyada bir-birinin eyni olan iki yazı xətti yoxdur" (Hüseyn, 1989: 190).

Eyni zamanda, Mehdi Hüseyn “Nizami” əsərinin nöqsansız olmadığını da bildirmişdir: “Əgər qüsurlardan danışmaq lazım gəlsə, deyə bilərəm ki, məndə Nizami surəti sona qədər eyni ahəngdə inkişaf etdirilməmişdir. “Nizami” əsərində pauzalar həddən artıqdır, bütün surətlərin münasibətində hadisələri bir-biri ilə üzvi surətdə bağlayan möhkəm bir sütun yoxdur, dramatik mübarizəsinin hədəfı tez-tez dəyişir” (Hüseyn, 1989: 190).

Şübhəsiz ki, pyes nöqsansız deyildir, müəllif müasir dövrünün nümayəndələrində vətənpərvərlik hissini təbliğ etmək üçün tarixi hadisələrdən daha çox sənətkar təxəyyülü vasitəsilə həmin tarixi hadisələrdə müəyyən dəyişikliklər edərək təsvir etmişdir. Təbii ki, sənətkar tarixçidən fərqli olaraq tarixin əsiri olmamalıdır. Lakin tarixə münasibətdə də ən başlıca prinsip tarixi həqiqətin mahiyyətini tam mənası ilə mühafizə edib göstərməlidir. Mehdi Hüseyn də “Nizami” dramında bu prinsipə sadiq qalaraq dövrün ümumi səciyyəsini dürüst göstərməklə, məqsədinə uyğun olaraq tarixi faktlarda müəyyən dəyişikliklər etmişdir.

Əziz Şərif “Ədəbiyyat” qəzetinin 1943-cü il üç iyun nəşrində “Nizami dramı” məqaləsində Nizami obrazına daha obyektiv münasibət bildirmişdir: “Söz yox, əsərdə mərkəzi yeri Nizami obrazı tutur, avtor da onu elə göstərir ki, böyük şairin dahi əsərlərini oxuyub sevən hər bir şəxs Nizaminin doğurdan da Mehdi göstərdiyi kimi olduğuna inanır, çünki avtor öz böyük qəhrəmanını ilk növbədə bir şair olraq təsvir etmiş və onun bütün o biri xüsusiyyətlərini bu başlıca xüsusiyyətə tabe tutmuşdur” (Şərif, 1943).

Qeyd edək ki, tədqiqatçılar, xüsusilə də, Məmməd Arif “Nizami” və “Vaqif” dramı arasmdakı oxşarlıqdan bəhs etmişlər. Bu haqda Yəhya Seyidov “Mehdi Hüseyn” monoqrafıyasında yazmışdır: “1947ci ildə dramaturgiyası konfransmda müəllifın çıxışından anlaşıldığına görə, məruzəçi M. Arif “Nizami” və “Vaqif” arasında müəyyən bir bənzəyiş görərək bu əsərlər arasmda yaxınlığı çox qabartmışdır” (Məmməd, 1968: l22).

Əlbəttə, “Vaqif” və “Nizami” dramlaları arasmda müəyyən bənzəyiş var. İlk növbədə Vaqif ilə Nizami şəxsiyyətlərinin müdafiə etdikləri ideyalarda oxşarlıq var.

Hər iki pyesin qəhrəmanları həm Vaqif, həm də Nizami vətənlərinin azadlığı uğrunda çalışır, vətənlərinin dar günündə köməyinə çatır. Vaqif də Nizami kimi, xalqının, onun azadlığı naminə xanla qarşı-qarşıya gəlməkdən qorxmur, gördüyü həqiqətləri şaha deməyə çəkinmir.

“Vaqif:

Eldə can qoymadı ağır vergilər,
Siz bu qanunlarla qalsanız əgər,
Doğma balanız da yad olacaqdır,
Külünüz göylərə sovrulacaqdır...
Kor kimi qalmasın insan,
Qalxsın cəhalətin qaranlığından!" (Vurğun, 2005: 40-41).

"Nizami: Ey hökmdar, gözəl Bərdəni yandırıb külə döndərdilər. Azərbaycanın dilbər guşələrindən biri də məhv olub getdi... Analar övladlarından, bacılar qardaşlarmdan ayrı düşdü. Odur, baxın, Bərdənin yaralı igidləri sizdən kömək istəyir. Hanı elə bir hökmdar ki, bu xarabaları görərkən, ürəyindən qopan ah səsi bütün dünyanı titrətsin?!" (Hüseyn, 2005: 105).

Hər iki əsərin ideyasmda vətənpərvərlik motivləri əsas yer tutması da, dramlar arasmda oxşarlığı daha çox nəzərə çarpdırır. Lakin müəlliflər qeyd etdiyimiz oxşarlığı öz əsərlərində özünəməxsus formada ifadə etmişdirlər.

**Nəticə**

Bu nəticəyə gəlmək olar ki, Mehdi Hüseyn "Nizami" dramında Nizami Gəncəvi şəxsiyyətini tarixdə olduğu kimi təsvir etməyə çalışmışdır. Müəllif əsərdə Nizmi Gəncəvinin həyatının müəyyən bir hissəsinin və daha çox vətənə, ailəyə bağlılığı istiqamətində təsvir etmişdir. Dramda ədib tarixilik və müasirliyi sintez şəklində vermişdir.

**QAYNAQLAR**

Ağayev, Əkbər (1957). "Nizami", Ədəbiyyat qəzeti, 28 sentyabr, s. 3.
Hüseyn, Mehdi (1989). "Ədəbiyyat və Həyat". Bakı: Yazıçı.
Hüseyn, Mehdi (2005). "Seçilmiş Əsərləri", 3 cilddə, III cild, Bakı, Avrasiya-Press.
İbrahimov, Mirzə (1947). "Həyat və Ədəbiyyat", Bakı: Azərnəşr.
Məmməd, Arif (1968). "Seçilmiş Əsərləri", Bakı: AzSSR EA.
Seyidov, Yəhya (1979). "Mehdi Hüseyn", Bakı: Yazıçı.
Şərif, Əziz (1943). "Nizami dramı", Ədəbiyyat qəzeti, 3 iyun.
Vurğun, Səməd (2005). "Seçilmiş əsərləri", Bakı: Şərq-Qərb.